*https://doi.org/10.30546/114578.2025.9.1043*

# SEYİD ƏZİM ŞİRVANİ YARADICILIĞININ DÜNYA ƏDƏBİYYATINDA YERİ

**Sabir Şahtaxtı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı*
*sabir-haciyev-1968@mail.ru*

*Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli...*
*Yaşamaq da xoşdur, ölmək də xoşdur,*
*Qayəsiz həyatda ölüm də boşdur...*
***Hüseyn Cavid***

**Xülasə**

Məqalədə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamış tarixi şəxsiyyət, tənqidi-satirik şeirləri və mübarizliyi ilə milli ədəbiyyatımıza silinməz irs bəxş edən Seyid Əzim Şirvaninin həyat və yaradıcılığına nəzər salınır. Şairin zəngin, mənalı həyat və yaradıcılığını, o cümlədən "Rəbiül-ətfal" dərsliyinin taleyi təhlil edilərək Seyid Əzim Şirvaninin əsərlərinin bütün dövrlərdə böyük oxucu kütləsinin rəğbətini qazandığı əsaslandırılır. Özünəməxsus ədəbi üslubu ilə zəmanəsinin yaradıcı simalarından seçilən Seyid Əzim öz mübarizliyi və qətiyyəti ilə nəinki Azərbaycan ədəbiyyatında, dünya ədəbiyyatında da özünəməxsus əbədi həyat qazanıb.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, Seyid Əzim Şirvani, şair, təhsil, kitab, əsər.

# THE PLACE OF SEYID AZIM SHIRVANI'S CREATIVITY IN WORLD LITERATURE

**Sabir Shahtaxti**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The article examines the life and creativity of the great Seyid Azim Shirvani, a historical figure who played a significant role in enriching Azerbaijani literature with new enlightenment ideas, and who gave an indelible

legacy to our national literature with his critical-satirical poems and struggle. The poet's rich, meaningful life and work, including the fate of the textbook "Rabiul-Atfal", are analyzed, and it is substantiated that Seyid Azim Shirvani's works have gained the sympathy of a large audience of readers at all times. Seyid Azim, who stood out among the creative figures of his time with his unique literary style, has gained a unique eternal life not only in Azerbaijani literature, but also in world literature with his struggle and determination.

**Key words:** Azerbaijani literature, Seyid Azim Shirvani, poet, education, book, work.

## МЕСТО ТВОРЧЕСТВА СЕЙИДА АЗИМА ШИРВАНИ В МИРОВОЙ ЛИТЕРАТУРЕ

**Сабир Шахтахты**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В статье исследуется жизнь и деятельность великого Сейида Азима Ширвани, исторической личности, сыгравшего значительную роль в обогащении азербайджанской литературы новыми просветительскими идеями, и оставившго неизгладимое наследие нашей национальной своими критико-сатирическими стихами и борьбой. Анализируя богатую содержанием жизнь и творчество поэта литературе, в том числе судьбу учебника «Рабиул-Атфал», автор утверждает, что уникальное творчество Сейида Азима Ширвани во все времена завоевывало симпатии широкой читательской аудитории. Сейид Азим, выделявшийся среди всех творческих деятелей своего времени своим неповторимым литературным стилем, навсегда завоевал жизнь своей борьбой и решимостью.

**Ключевые слова:** азербайджанская литература, Сейид Азим Ширвани, поэт, образование, книга, произведение.

### Giriş/Introduction

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra milli dövlətçilik ideologiyasının əsasları müəyyən edilərkən tarixi şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi və yaradıcılığının daha geniş şəkildə təşviqi və təbliğatı mühüm istiqamət olaraq tərtib edilmişdir. Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilən bu fəaliyyətin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi dövlət səviyyəli ənənəyə çevrilmişdir. Həyat və

yaradıcılığının geniş tədqiqə və daha çoxşaxəli tanıtıma ehtiyacı olan şəxsiyyətlərdən biri də Hacı Seyid Əzim Şirvanidir. Ən azı ona görə ki, sağlığında qaragüruhun hərtərəfli basqıları ilə üz-üzə dayanan Seyid Əzim Şirvani şəxsiyyətinə və yaradıcılığına qarşı qərəzli yanaşmalar indi də var. Daha çox təriqət xarakterli olan bu hücumlar əsasən müəyyən xarici dairələrdən qaynaqlanır.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı 4 aprel 2025-ci il tarixli məlum Sərəncamla Seyid Əzim Şirvaninin anadan olmasının 190 iliyi qeyd olunur. Məlum olduğu kimi, Azərbaycan dilində nəşr olunan "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Bu mənada "Əkinçi"nin fəaliyyətində özünəməxsus əməyi olan Seyid Əzim Şirvaninin anadan olmasının 190 illiyi ilə milli mətbuatımızın 150 illiyinin eyni ilə təsadüf etməsi olduqca xoş bir hadisədir. Seyid Əzim "Əkinçi" qəzetinə göndərdiyi mənzum təbrik məktubunda Həsən bəy Zərdabini milli qəzet çıxarmasını bütün müsəlman dünyasına töhfələr mədəni verən hadisə qiymətləndirir. Eyni zamanda, böyük şair qəzetin əhəmiyyəti barədə təbrik məktubundakı sözlərlə kifayətlənməyərək, "Əkinçi"nin fəal oxucusu olmuş, ilk ənənəvi media nümunəmizin dəst-xəttini düzgün dəyərləndirməyə çalışmışdır. Şairin dövrü qəzetlərlə əməkdaşlığı məhz bu dəyərləndirmənin real nəticəsidir. Tədqiqatçı Alxan Bayramoğlu yazır: *"...Tezliklə məqsədinə nail olan Seyid Əzim həm "Əkinçi"nin, həm də ondan sonra işıq üzü görən "Ziya (Ziyayi-Qafqasiyyə)" və "Kəşkül"ün aparıcı müəlliflərindən olmuşdur"* [Bayramoğlu, 2015]. *"Əkinçinin"nin fəaliyyətinə töhfə verən bütün şəxslərin zəhməti barədə bu və ya digər formada yüksək fikirlər söyləyən Həsən bəy Zərdabi təbii ki, Seyid Əzim Şirvaninin də əməyini unutmamış və bu barədə "Bizim nəğmələrimiz" adili məqaləsində bəhs etmişdir* [Hüseynov, 1987:23].

Bundan 137 il əvvəl, yəni 1888-ci il mayın 20-də Şamaxı məscidində döyülərək öldürülən şair Şirvaninin öz zəmanəsində cəhalətə, xurafatçılığa, dini radikalizmə qarşı apardığı barışmaz mübarizə bu gün də cəmiyyətimizin aktual tələbidir. Seyid Əzim Şirvaninin həyat və yaradıcılığı nə qədər zəngindirsə, onun faciəli ölümü də bir o qədər düşündürücü və təəssüfləndiricidir. Çağdaş milli dünyamızın türkçülük və mübarizlik simvolu olan böyük ədib Hüseyn Cavidin "həyat və ölüm" barədə ibrətamiz misraları Seyid Əzim Şirvani şəxsiyyətini və onun acı taleyini də özündə ehtiva edir.

Yazıqlar olsun ki, Seyid Əzim Şirvanini döyərək öldürən cahil toplum, bu azmış kimi onun cansız bədənini də ayaqlar altında tapdalayıb. Bəli, böyük şairin həyatına məhz cahil yığını, cəhalət toplumu tərəfindən son qoyulub.

Tədqiqatçılar əsaslandırır ki, şairin məscidə daxil olmasını görən mollaların qışqırıb "öldürün kafiri" sözlərindən sonra yüzlərlə insan onu ayaqlar altına alaraq əzə-əzə öldürüblər. Şairin cəsədini məsciddən güclə çıxardıblar və ailəsinə təhvil veriblər. Seyid Əzim Şirvani də bizimdir, onu amansızcasına öldürən cahil kütlə də. Heç şübhəsiz ki, bugünkü şirvanisevərlər arasında onu məsciddə tapdalayanların törəmələrindən də var. Təəssüflə qeyd etməliyik ki, onun yaradıcılığına qarşı əsassız hücumlar sağlığında olduğu kimi indi də var. Niyə? Olduqca düşündürücü olan bu suala cavab vermək əslində o qədər də çətin deyil.

Seyid Əzim Şirvani vətənsevərdir, elinə və dininə bağlıdır, ailəcanlıdır, maarifçi və təhsilsevərdir. Bütün bu cəhətlər onun nümunəvi bir insan ömrü yaşadığını təsdiqləyir. Geniş mənada xalqın maraqları üçün səs ucaldanlar isə hər zaman təqib olunublar.

Nəcəfdə və Şamda təhsil alması Şərq poeziyasının çoxəsrlik ənənələrini mənimsəməkdə Seyid Əzim Şirvaniyə böyük yardımçı olmuşdur. O, fitri istedadı və qazandığı poeziya elminin qüdrəti ilə yaradıcılığını yüksək sənətkarlıqla davam etdirmiş, həm də mühüm ictimai-siyasi dəyişikliklərin baş verdiyi bir şəraitdə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Elm öyrənməyə böyük həvəsi olduğuna görə, var-dövlət haqqında düşünməyən böyük şairin həyatının bir hissəsi də Dağıstana bağlıdır. Bununla belə, o, hər zaman doğulub boya başa çatdığı və amansızlıqla öldürüləcəyi ana yurduna bağlı olub.

Tədqiqatçı Kamil Mir Bağırov yazır: "*Anası qəriblikdə tab gətirə bilmədiyindən, 1853-cü ildə oğlu ilə birlikdə Vətəni Şamaxıya qayıtmışdır*" [Bağırov, 1959:235]. Təkcə bu ifadə böyük şairin doğma anasına və doğulduğu ana yurda eyni zövqi-məhəbbətlə bağlı olduğunu təsdiqləyir. Şairin 1856-cı ildə dünyaya gələn oğlu Mir Cəfərə xitabən yazdığı şeirə diqqət edək:

*Cəfər, ey qönçeyi-gülüstanım,*
*Ey mənim bülbülü-xoş əlhanım.*
*İki yüz yetmiş üçdə bəd həzar,*
*Mötədil fəsl idi zamani-bahar.*
*Səni Həqq mən fəqirə etdi əta,*
*Kəbəyi-qəlbimə yetişdi səfa.*

Oğlunun dünyaya gəlməsi tarixini hicri qəməri ilə 1273-cü il qeyd etməsi olduqca normal bir hal olduğu kimi övlad sahibi olmasını Həqqin ona bəxşişi, hədiyyəsi kimi qəbul etməsi, qəlbini Kəbə ilə müqayisəsi Şirvaninin inanc və

etiqadının misilsiz göstəricilərdir.

Unutmaq olmaz ki, ruhani ailəsində dünyaya göz açan Şirvaninin atası Seyid Məhəmməd zəmanəsinin sayılıb seçilən savadlı insanlarından olub. Atasını erkən itirən Seyid Əzim babası molla Hüseynin himayəsi altında böyüyüb. Şairin həyatının Dağıstan dövrü də məhz babasının orada yaşaması, qızını və nəvəsini yanına aparması ilə bağlıdır. Hacı olması, seyid nəslini təmsil etməsi, molla babasından təlim-tərbiyə və ilk təhsil alması, o cümlədən qoca şərqin incilərindən olan Nəcəf və Şama getməsi Şirvaninin elm və təhsil yolundakı əzmkarlığının mühüm nişanələridir. Şair üçün xalqın təhsilli olması, insanların kütləvi maariflənməsi var-dövlət, mal-mülk anlayışından çox-çox zirvədə dayanmışdır.

**Seyid Əzim vətənsevərlik nümunəsi kimi.** Şirvaninin vəsiyyətinə görə, onun nəşini Şahxəndan qəbirstanlığında dəfn ediblər. Şair yazırdı:

*Mən öləndə Şahxəndanda basdırın,*
*Çünki onun Şahidi- Xəndanı var.*

Ehtimala görə, 15-ci əsr böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin qardaşı şair Şaxəndan (Şahxəndan, Şahi-Xəndan) Şamaxı məzarlığında dəfn olunmuş və qəbiristan da onun adı ilə adlanmışdır. Seyid Əzim Şirvaninin məzarı da Şaxəndandadır [ASE, X c., 1987:472]. Seyid Əzim öz vəsiyyətini yazarkən şair Şaxəndana olan rəğbətini gizlətmir ki, bu da Əzimin şəxsiyyət kimi ucalığını tərənnüm edir.

Bu yerdə məmnuniyyətlə Ukraynanın böyük şairi Taras Şevçenkonun "Vəsiyyət" şeirindən ilk bəndi xatırlada bilərik:

*Mən öləndə, məni basdırarsınız,*
*Yüksək bir təpədə, bir dağ başında.*
*Elə bir yerdə ki, görünsün yalnız*
*O gözəl Ukrayna... Onun daşında...*

T.Şevçenkonun dünyaca məşhur şeirindəki bu bənd ilə Seyid Əzim Şirvaninin Şahi Xəndanın əzəmətini tərənnüm edən ifadəsi arasında məna, mahiyyət və duyğu qohumluğu var. Fərq ondan ibarətdir ki, T.Şevçenkonun qələmə aldığı şeirin, hətta yazılma tarixi (25 dekabr 1845-ci il) belə bütün dünyaya məlum olduğu, təxminən 150 dilə tərcümə olunduğu, ona müxtəlif janrlarda musiqilər bəstələndiyi halda S.Ə.Şirvani şəxsiyyəti indi də bəzi hallarda cahillərin hücumu ilə üz-üzədir [Aliyev]. Şirvanini dinsiz, ateist kimi qələmə verməyə çalışanlar onun vəfat etdiyi məkanla bağlı da amansızcasına

saxtakarlıq etməyə cəhd edirlər. Əgər böyük şair dinsiz idisə, o zaman belə çıxır ki, onu məhz öldürmək üçün məscidə zorla aparmışdılar. İkinci bir mühakimə: Seyid Əzimin öldüyü "basabas"da digər insanların da ölməsinə dair mənbələrdə məlumat yoxdur.

Dahi Şirvani şeirlərinin birində cəmiyyətin ona münasibətindən gileylənərək yazır:

*Ta ki müstəcmii-ülum oldum,*
*Nəzəri-əhli-əsrə şum oldum...*
*Eylədim taki hər büsatə güzər,*
*Məni gördükdə xəlq söylədilər:*
*Budu gəldi səfahətin kani,*
*Hacı Seyyid Əzim Şirvani...*

Bu bənddə ən çox diqqətin ayrılmalı olduğu "səfahətin kani" ifadəsinin mənasıdır. "Səfahət" sözü ərəbcədə "səfeh", "Kani-səfahət" isə fars dilində "səfehlik mənbəyi" mənasını daşıyır. Göründüyü kimi şair böyük poetik ustalıqla ətrafın ona münasibətini aydın şəkildə təsvir etmişdir. Onu "səfehlik mənbəyi" adlandıran cahil yığını bütün üsullardan istifadə etməklə şairi təqib və təhqir edirdilər.

Humanist ideyaların təbliğinə xüsusi diqqət yetirən Seyid Əzim Şirvani cəmiyyətin sosial-mədəni tərəqqisi uğrunda qabaqcıl ziyalıların apardığı mübarizənin daim ön sıralarında dayanmışdır. Onun xalqa xidmət naminə öz maarifçi düşüncələrini gerçəkləşdirmək arzusu ilə ana dilində açdığı yeni üsullu məktəb Azərbaycan təhsili tarixində dərin iz qoymuşdur.

Qəzəlləri, rübailəri, qoşabeytləri, təkbeytləri, qitələri, tərkibbəndləri, müxəmməsləri, müsəddəsləri və müstəzadları təsdiq edir ki, janrların hər birində mükəmməl yazmağı bacaran Seyid Əzim Şirvani bütün məsələlərə realist yanaşma sərgiləyir. Yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə zəngindir. Çoxsaylı faktlar və dərin mühakimələrlə əsaslandıra bilirik ki, şairin yaradıcılığının bu mərhələsində realizm üstünlük təşkil edir. Bəli, Seyidin şeirdə ifadə üslubunda bitməzlik, sərhədsizlik, tükənməzlik mövcuddur. O hər bir anı olduğu kimi tərənnüm edə bildiyi üçün realistdir!

*Yüz mama olsa, ey guruhi bəşər,*
*Bu məsəldir ki, güc doğanə düşər.*

"Bəşər" sözünün insan mənasını daşıdığı bu misrada aydın görürük ki, şair el məsəllərini mükəmməl bilir və onu nəzmə çevirməkdə mahir yanaşma

göstərir. Şairin yaradıcılığının bu istiqamətləri ilə təkbeytlərdə tanış ola bilirik [Rəhimli, 2005:399]. Məsələn:

*Ölmə eşəgim, sabah olur yaz,*
*Yonca bitibən işin olur saz.*

Və yaxud:

*Sazı səksəndə öyrənən idbar,*
*Bir də anı qiyamət olsa çalar.*

Onun realist şeir yaradıcılığı sahəsinə keçməsində "Əkinçi" qəzetinin mühüm rolu olub. Çünki məhz "Əkinçi"nin təsiri ilə şair günün bir çox zəruri məsələləri ilə maraqlanıb və yaradıcılığında yeni mövzulara keçib. Müasir həyatın tələblərinə uyğun şeirlər yazıb və Azərbaycanın ilk mətbu orqanında nəşr etdirib. Maarifçi şair üçün "Əkinçi" qəzeti xalqa müraciət üçün dövrün ən uyğun tribunası idi. O bu qəzetin səhifələrində yazdığı məqalələri və şeirləri ilə xalqı qəflət və cəhalət yuxusundan oyanmağa çağırır, Həsən bəy Zərdabinin xeyirxah, maarifçi təşəbbüslərini alqışlayır, onu bilikli bir müəllim və xeyirxah insan kimi qiymətləndirirdi.

Seyid Əzimin şeirlə ifadə etdiyi nəsiətlər milli inkişaf üçün nəzəri əsaslandırmadır.

*Ki, nə qədər olsa şəxs naqabil[2],*
*Tərbiyyətlə genə olur kamil.*

Tədqiqatçı Sadıq Hüseynov məhz bu misraları rəhbər tutaraq yazır ki, şairə görə, hər bir evdə həm ata, həm də ana öz övladlarının qayğısına qalmalı, onun tərbiyəsi ilə müntəzəm məşğul olmalıdır [Hüseynov, 1987:83]. Bu yanaşma bütün dövrlərdə inkarolunmaz həyat gerçəyi olaraq ən doğru yol kimi özünü təsdiqləyib.

**"Rəbiül-ətfal" barədə bir neçə söz.** "Rəbiül-ətfal", yəni "Uşaqların baharı" adlı yazılan dərslik cəmi 232 başlıqdan ibarətdir. Kitabdakı materialalr "Peyğəmbərin tərifi", "Peyğəmbərin Əli ilə zarafatı", "Həzrəti-İbrahim əhvalatı", "Əlinin əshabələrlə zarafatı", "Həzrəti İsanın qissəsi", "Musa və çoban əhvalatı", "Hədis" (iki dəfə) və sair kimi başlıqlar əsasında verilmişdir [Şirvani, 2002:26-278]. Bütün bunlar müəllifin İslama və din həyatı bilgisinə olan münasibətidir ki, bu barədə məqalənin əvvəlində fikir irəli sürmüşük. Bundan başqa, kitabda yer qazanan "Əlinin Ömər və Əbubəkirlə zarafatı" sərlövhəsi İslamda təriqətçiliyə və ayrımçılığa qarşı müdrik bir yanaşmadır.

Hansı ki, problem, yəni dini təriqətçilik qarşıdurması günümüzdə daha təhlükəli məcraya doğru köklənib. Dərslikdəki mövzu rəngarəngliyi ibrətamizdir. Kitabdakı başlıqlardan 14-ü "Oğluma nəsihət", altısı "Oğluma xitab", dördü "Mircəfərə xitab, biri "Oğluma müraciət", ikisi "Öyüd" adlanır. Bütün bunlar Seyid Əzim Şirvaninin sağlam, mənən zəngin gənc nəsil yetişdirmək arzusunun nişanələridir ki, bunun da qısa tərənnümü millətsevərlikdir. Haqında bəhs etdiyimiz kitabda cəmləşdirilən materialları təhlil edərkən açıq şəkildə görünür ki, onlar şairin zaman-zaman qələmə aldığı nümunələr toplumudur. "*Seyid Əzim kiçik həcmli mənsur hekayələr də yazmışdır. Bu hekayələr şairin "Rəbiül-ətfal" oxu kitabında toplanmışdır* [Hüseynov, 1987:99]. Beləliklə, irəli sürülən mühakimələri nəzərə almaqla ifadə edə bilərik ki, keçmiş sovetlər birliyi dövründən orta məktəblərin dərsliyi olaraq tanınan "Ədəbiyyat müntəxabatı" bir növ "Rəbiül-ətfal" metodunda tərtib olunmuşdur.

İndi kitab barədə mütəxəssis rəyinə baxaq: "*Məlum olduğu kimi, pedaqoji fəaliyyəti zamanı ana dilində dərsliyə ciddi ehtiyac olduğunu görən Seyid Əzim bu məqsədlə uşaqlar üçün tərbiyəvi parçalar seçib toplayıb, tərcümə edib və özünün yazdığı mətnləri 1878-ci ildə bir yerə yığaraq birinci və ikinci sinif şagirdləri üçün dərslik tərtib edib. Nəşrə təqdim etdiyi bu dərslik rəsmi dövlət sənədlərində "Rəbiül-ətfal" adlandırılıb"* [Qaraoğlu, 2017].

İkinci yanaşma: "*Bizə elə gəlir ki, hökumət rəsmiləri tərəfindən "Rəbiül-Ətfal"ın oxu kitabı kimi qəbul edilməməsinin səbəbini şairə münasibətlə, onun siyasi baxışları ilə əlaqələndirmək məsələni bəsitləşdirmək olardı: o vaxt dərsliklər üçün dövlət tərəfindən müəyyənləşdirilmiş ciddi təlim standartları var idi. Onu da nəzərə almaq çox mühümdür ki, Seyid Əzim "Rəbiül-ətfal"ı tərtib edəndə - 1877-ci ildə artıq Şamaxı şəhər rus məktəbinin şəriət və Azərbaycan dili müəllimi idi və o, yazdığı kitabın dərslik kimi nəşr edilərək azərbaycanlıların təhsil aldıqları bütün məktəblərdə tədris olunmasına çalışırdı"*... [Osmanoğlu]. Əlbəttə ki, ədəbi tənqidçi Məti Osmanoğlu haqlıdır. Sözügedən dərsliyin nəşrinə icazə verilməməsində məsələnin Seyid Əzim Şirvaninin şəxsiyyətinə bağlılığı problemin bəsitliyi deyil, əksinə yetərincə mürəkkəbliyinin xarakteristikasıdır. Bəli, "Uşaqların baharı" adlı kitabın dərslik kimi təsdiq olunmaması çar Rusiyasının amansız "millətlər" siyasətinin göstəricisidir. Bunu bilsə də öz dəst-xəttində israrlı olan Seyid Əzim bir dərs vəsaiti ilə ucu-bucağı görünməyən bir imperiyanı qorxudaraq ucalmışdır. Şirvani şəxsiyyətini təhqir edən cahillər, onu ateist kimi qələmə verməyə çalışan "dindar" təbəqə, hər addımda hədə və təqiblə təhdid edən muzdlular nədirsə, "Rəbiül-Ətfal"ı dərslik kimi beşikdəcə boğan imperiya üsul-idarəsi də eyni

mahiyyətdir. "*...Seyid Əzim Şirvaninin "Şirvan bəyləri haqqında" adlı satirasında əsas tənqid hədəflərindən biri də ədalətsiz, rüşvətxor çar məmurlarıdır... Satirada qorxmaz, inadkar bir şairin ruhu duyulmaqdadır. Müəllif ictimai haqsızlıqları göstərməkdən, haqq sözü düşmənin üzünə dik deməkdən zərrə qədər ehtiyat etmir* " [Bağırov, 1959:210-211].

"Rəbiül-ətfal" dəsliyindəki materialların birinci və ikinci sinif şagirdləri tərəfindən qavranılmaq imkanına gəldikdə isə deməliyik ki, o dövrdə uşaqların "nağıl gecələri" məhz kitabda yer alan mövzuları əhatə edirdi.

Bundan başqa, Seyid Əzim sözügedən dərslik də daxil olmaqla bütün yaradıcılığında mövzu zənginliyi ilə birbaşa milli təfəkkürün oyanışına xidmət edir. "*Maarifçi şair feodal münasibətlərin Azərbaycan kəndlisini nə cür gülünc vəziyyətə saldığını "Xan və dehqan" satirasında aydın göstərmişdir. Burada təsvir olunan avam əkinçi feodalizm məngənəsində əzilən Azərbaycan kəndlisinin tipik surətidir"* [Bağırov, 1959:111].

**Nəticə/Conclusion**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli şair və böyük maarifçi Seyid Əzim Şirvaninin anadan olmasının 190 ilinin qeyd olunması böyük ədəbi-tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu barədə imzaladığı 4 aprel 2025-ci il tarixli məlum Sərəncam Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının üzərinə konkret vəzifələr qoyur. Bununla belə, Seyid Əzim Şirvaninin həyat və yaradıcılığının daha dərindən təhlil edilməsi və təbliği Azərbaycan elm və təhsili, hər bir ziyalı qarşısında mənəvi borcdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və 2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısına daxil olan kitablar sırasında Seyid Əzim Şirvaninin də əsərləri vardır. Bu çərçivədə "Seyid Əzim Şirvani Əsərləri. Üç cilddə" (Bakı, Elm, 1969 nəşri əsasında) tərtib olunaraq təkrar nəşrə hazırlanmış və nəfis tərtibatda çap edilmişdir. Lakin yaxşı olardı ki, Seyid Əzimin sovet dövründəki nəşrlərinin ümumi məzmun keyfiyyəti indiki nəşrlərdə da nəzərə alınsın.

Fitri yaradıcılıq istedadı ilə sayılıb seçilən Hacı Seyid Əzim Şirvani şəxsiyyət kimi də nümunəvidir. Cəsurluq, qorxmazlıq, müdriklik və uzaq-görənlik kimi keyfiyyətləri hər zaman şairin yaradıcılığına rəğbət gətirib.

Seyid Əzim Şirvaninin həyat və yaradıcılığının daha geniş tanıdılması

mühüm vəzifə olaraq qalır. Onun şeirlərinin yazılma tarixinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Nəşrlərin tiraj sayı nəinki yetərsizdir, ümumiyyətlə çox azdır. Digər bir məsələ isə seçilmiş əsərlərinin başqa dillərə tərcüməsidir.

Seyid Əzim Şirvaninin həyat və yaradıcılığı ilk növbədə türk dövlətlərində tanıdılmalıdır. Bunun üçün TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Avrasiya Yazarlar Birliyinin böyük imkanlarından istifadə edilməlidir. Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə Kokand Dövlət Universitetində Seyid Əzim Şirvani adına auditoriya yaradılmasını (2025) bu istiqamətdə ilk mühüm addımlardan biri kimi qəbul etmək olar.

## ƏDƏBİYYAT/REFERENCES

1. Bayramoğlu, A. (2015). Seyid Əzim Şirvani və mətbuat. https://www.anl.az/down/meqale/azerbaycan/2015/iyul/448910.htm
2. Bağırov, K. (1959). Seyid Əzim Şirvani. – Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı. − 235 səh.
3. ASE (1987). X cild. – Bakı, 472 s.
4. Hüseynov, S. (1987). Seyid Əzim Şirvani. – Bakı: “Yazıçı”. − 121 s.
5. Hüseynov, S. (1977). Seyid Əzim Şirvaninin yaradıcılıq yolu. − Bakı: “Elm”. − 216 s.
6. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri (3 cilddə). I cild. – Bakı: “Avrasiya-Press”. − 398 S.
7. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri (3 cilddə). II cild. – Bakı: “Avrasiya-Press”. − 383 s.
8. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri (3 cilddə). III cild. – Bakı: “Avrasiya-Press”. − 286 s.
9. Şirvani, S.Ə. (2002). Seçilmiş əsərləri. − Bakı: “Maarif”. − 294 s.
10. Qaraoğlu, F. (2017). Tarixdə iz buraxanlar: Seyid Əzim Şirvani. https://www.anl.az/down/meqale/baki_xeber/2017/dekabr/567580.htm
11. Osmanoğlu, M. Uşaqların baharı və ya klassik üslubun payızı. https://edebiyyat-qazeti.az/news/edebi-tenqid/488-usaqlarin-bahari-ve-ya-klassik-uslubun-payizi

***Məqalə tarixçəsi***
*Daxil olub* *23.08.2025*
*Qəbul edilib* *10.09.2025*
*Nəşrə tövsiyə edib* *Könül Səmədova*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*